TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri

_____________ E.M.Ağayev

"____"________________ 2021-ci il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**PİKOVİT FORTE** pastillər
PIKOVIT® FORTE

**Beynəlxalq patentləşdirilməmiş adı:** Polivitaminlər

**Tərkibi**
Bir pastilin tərkibində var:
*Təsiredici maddələr:*

| | |
|---|---|
| retinol (vitamin A) | 5000 BV |
| (vitamin A konsentratının miqdarına uyğundur (sintetik yağ forması) 1,7 mln BV/q) | 2,94 mq |
| xolekalsiferol (vitamin $D_3$) | 400 BV |
| (kolekalsiferol konsentratının miqdarına uyğundur (yağ forması) 1 mln BV/q) | 0,40 mq |
| askorbin turşusu (vitamin C) | 60 mq |
| nikotinamid | 20 mq |
| alfa-tokoferol (vitamin E) | 15 mq |
| (tokoferol asetata uyğundur, 50% qranulat) | 30 mq |
| kalsium-pantotenat (vitamin $B_5$) | 10 mq |
| piridoksin hidroxlorid (vitamin $B_6$) | 2 mq |
| riboflavin (vitamin $B_2$) | 1,7 mq |
| tiamin nitrat (vitamin $B_1$) | 1,5 mq |
| fol turşusu | 0,4 mq |
| sianokobalamin (vitamin $B_{12}$) | 6 mkq |
| (mannitolda 0,1% sianokobalaminin miqdarına uyğudur) | 6 mq |

*Köməkçi maddələr:* mannitol, aspartam, mandarin aromatizatoru, polisorbat 80, qliserin, gənəgərçək yağı, maltitol - maye şəklində (quru maddəyə), maqnezium stearat, kapol 600 farma, povidon, susuz kolloidal silisium dioksid, titan dioksid (E171), beta-karoten (E160a), maltitol.

**Təsviri**
Girdə, iki tərəfi qabarıq, narıncı rəngli tabletlərdir.

**Farmakoterapevtik qrupu**
Polivitamin vasitə.
**ATC kodu:** A11BA

**Farmakoloji xüsusiyyətləri**

***Farmakodinamikası***

Pikovit fortenin tərkibində 7 yaşlı və daha böyük olan uşaqlar üçün tövsiyə olunan gündəlik dozalara uyğun miqdarda 11 ən mühüm vitamin var.

B qrupu vitaminləri ($B_1$, $B_2$, $B_6$, $B_{12}$, pantoten turşusu və nikotinamid) karbohidratların, zülalların və yağların metabolizmində iştirak edir. Fol turşusu qan hüceyrələrinin normal sintezi, regenerasiyası və fəaliyyəti üçün zəruridir. A vitamini epitelial hüceyrələrin inkişafı və görmə piqmentinin sintezi üçün zəruridir. D vitamini sümüklərə və dişlərə kalsiumun daxil olmasını tənzimləyir və onların düzgün minerallaşmasına səbəb olur. C vitamini dəmirin sorulmasını sürətləndirir və orqanizmdə bir çox oksidləşdirici-bərpaedici proseslərdə iştirak edir. E vitamini fizioloji antioksidant olub, hüceyrə membranlarını müdafiə edir və hüceyrələrin funksiyasını dəstəkləyir.

Pikovit forte pastillərinin tərkibində karies törətməyən şirinləşdirici maddələr olan maltitol, mannitol və aspartam var. Buna görə də, onlar dişlərə zərərli təsir göstərmir.

***Farmakokinetikası***

Suda həll olan vitaminlər (B qrupu vitaminləri, vitamin C və biotin) orqanizmin gündəlik tələbatına uyğun miqdarda çox yaxşı sorulur. Toxumaların doyma dərəcəsindən artıq olan miqdarları sidiklə və bəzən nəcislə xaric olur. Bu vitaminlər orqanizmdə yalnız məhdud miqdarda toplanır, buna görə də, onların toxumalarda lazım olan qatılıqlarını saxlamaq üçün onlar müntəzəm qəbul etmək lazımdır.

Yağda həll olan A və D vitaminləri peroral qəbuldan sonra nazik bağırsaqda yağların iştirakı ilə yaxşı sorulur. E vitamininin sorulması kifayət qədər zəifdir (dozanın 25-85%-i).

**İstifadəsinə göstərişlər**

Pikovit forte pastillərini orqanizmin vitaminlərə olan tələbatı yüksək olan hallarda, eləcə də, kifayətsiz və balanslaşdırılmamış qidalanma zamanı qəbul etmək tövsiyə edilir.

Bu hallara aşağıdakılar aiddir:

- məktəb yaşlı uşaqlarda həddindən artıq yorulma və diqqətin toplanmasının kifayət qədər olmaması
- fiziki yüklənmə (o cümlədən idmanla məşğul olma)
- keyfiyyətsiz və balanslaşdırılmamış qidalanma (infeksiyalara qarşı müqavimətin azalması)
- iştahanın azalması və ya olmaması
- antibiotiklərlə müalicə zamanı
- mövsümi təzə tərəvəz və meyvələrin kifayət qədər qəbul edilməməsi

**Əks göstərişlər**

Pikovit forte preparatının inqridientlərindən hər hansı birinə qarşı yüksək həssaslıq reaksiyaları qeydə alınıbsa, onu qəbul etmək olmaz.

A və D vitaminlərinin hipervitaminozu zamanı.

7 yaşdan kiçik uşaqlara Pikovit forte pastillərini vermək tövsiyə olunmur.

**Xüsusi göstərişlər və ehtiyat tədbirləri**

Digər vitamin preparatlarının birlikdə qəbuluna zərurət yaranarsa, həkimlə məsləhətləşmək lazımdır.

Şəkərli diabeti olan xəstələr Pikovit forte preparatını qəbul edə bilər. Eyni zamanda yadda saxlamaq lazımdır ki, bir pastilin tərkibində 0,84 q maltitol var. Maltitolun metabolizmi üçün insulin lazımdır, baxmayaraq ki, hidroliz və mədə-bağırsaq traktında sorulmanın ləng olması sayəsində insulinə tələbat aşağıdır.

Pikovit forte preparatının tərkibində maltitol və maye şəklində maltitol var. Fruktozaya qarşı dözümsüzlüklə bağlı nadir irsi problemləri olan xəstələr bu preparatı qəbul etməməlidir.

Pikovit forte preparatının tərkibində fenilalasinin mənbəyi olan aspartam (E951) var. Bu, fenilketonuriyası olan xəstələr üçün təhlükəli ola bilər.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsir**
Bəzi dərmanların (məsələn, tetrasiklin, quinolonlar, xolestiramin) birlikdə qəbulu kalsium ionları ilə qarşılıqlı təsirə səbəb ola bilər.

**Hamiləlik və laktasiya dövründə istifadəsi**
Hamilə qadınlar və süd verən analar vitaminləri həkimin tövsiyəsinə əsasən qəbul edə bilərlər.

**Nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri**
Pikovit forte nəqliyyat vasitələrini idarəetmək və mexanizmlərdən istifadə etmək qabiliyyətinə təsir etmir. Dərman uşaqlarda hərəkət fəaliyyətinə təsir etmir.

**İstifadə qaydası və dozası**
Pikovit forte pastili tam sorulana qədər ağızda saxlanılır.
7 yaşdan böyük uşaqlara gündə bir dəfə yeməkdən sonra 1 pastil qəbul etmək tövsiyə olunur.
Kifayət qədər iştaha olmadıqda pastilləri uşaqlara 2 ay müddətində hər gün vermək lazımdır, qalan hallarda pastillər lazım olduqca verilir.

**Əlavə təsirləri**
Anafilaktik reaksiyalar da daxil olmaqla, allergik reaksiyalar mümkündür. Belə hallarda, preparatın qəbulunu dayandırmaq və həkimlə məsləhətləşmək lazımdır.
Pikovit forte preparatının tərkibində 0,84 q maltitol var. Bununla əlaqədar olaraq, tövsiyə olunan doza həddinin aşılması ishal yarada bilər.
Əlavə təsirlər yaranan zaman preparatın qəbulunu dayandırmaq və həkimlə məsləhətləşmək lazımdır.

**Doza həddinin aşılması**
Çox yüksək dozaların uzun müddətli (bir aydan çox) qəbulu A və D viatminlərinin hipervitaminozunu əmələ gətirə bilər. Bununla belə, Pikovit forte pastillərinin qəbulu ilə doza həddinin aşılmasının mümkünlüyü azdır.
Mannitol və maltitol şirinləşdiriciləri mədə-bağırsaq sistemində zəif sorulur. Yüksək dozalarda onlar ishal və qarında köpün yaranmasına səbəb olur. Zəiflədici təsir gündə 60 q-dan artıq maltitol (75 Pikovit forte pastilləri) və ya 10 q-dan artıq mannitol (75 Pikovit forte pastilləri) qəbul edilən zaman yaranır.

**Buraxılış forması**
Pastillər.
Hər blisterdə 15 pastil.
2 blister istifadə təlimatları ilə birlikdə karton qutuya qablaşdırılır.

**Saxlanma şəraiti**
25°C-dən yüksək olmayan temperaturda, rütubətdən və işıqdan qorumaq üçün orijinal qablaşmada saxlamaq lazımdır.
Uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**
3 il.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Buraxılış forması**
Reseptsiz buraxılır.

**İstehsalçı/Qeydiyyat vəsiqəsinin sahibi**
KRKA, d.d., Novo mesto, Sloveniya
Şmarjeska c. 6,8501 Novo mesto, Slovenia.

**Azərbaycanda Nümayəndəlik**
Xocalı Prospekti 55, AGA Biznes Mərkəzi.
Tel.: (+99412) 464 40 22/23; (+99450) 264 29 27.